**AZƏRBAYCAN RESPUBLİKASI**

**NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI**

# NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ VƏ NARKOMANLIĞA QARŞI MÜBARİZƏNİN NƏTİCƏSİNƏ DAİR

## İLLİK HESABAT
## 2021



AZƏRBAYCAN RESPUBLİKASI

NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI

# İLLİK HESABAT 2021

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2019-cu il 22 iyul tarixli, 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın 4.1.23-cü bəndinin icrası ilə əlaqədar Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmışdır.

AZE 1016, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 40,
Hökumət evi
www.nmdk.gov.az
info@nmdk.gov.az
(994 12) 498-58-82
(994 12) 498-25-28
(994 12) 493-35-74

802
Qaynar xətt:



*"Narkomaniya və narkobiznes ilə mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və şüuri sağlamlığı uğrunda aparılan mübarizədir"*

*Heydər Əliyev*
*Ümummilli Lider*



*"XXI əsrin çağrışlarından hesab edilən narkotiklərin qanunsuz dövriyyəsi bəşəriyyətin gələcəyinə böyük təhlükə yaradır"*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

## MÜNDƏRİCAT


*Ön söz* 5

*Təşkilati tədbirlər* 8

*Normativ hüquqi bazanın təkmilləşdirilməsi* 12

*Beynəlxalq əməkdaşlıq* 15

*Narkomanlığa qarşı mübarizə sahəsində vətəndaş fəallığının artırılmasına yönələn tədbirlər* 18

*Hüquq mühafizə orqanları tərəfindən görülmüş işlər* 22

*Dünyada narkotiklərlə bağlı vəziyyətə dair təhlil* 38

*Narkotik asılılığı olan şəxslərin müəyyən edilməsi və müalicəsi, bu sahədə aparılan tədqiqatlar* 41

*Narkomanlığa qarşı təbliğat və profilaktika işinin təşkili* 49

# ÖN SÖZ

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyada son dərəcə mürəkkəb ictimai təhlükəli hadisə olmaqla, dünyanın bir çox dövlətlərində dəhşətli bəlaya çevrilmiş, tədricən yayılan neqativ sosial hal kimi ictimai həyatın bir çox sahələrinə sirayət etmişdir. Cinayətkarlığın artmasına səbəb olan narkotiklərin qanunsuz dövriyyəsi eyni zamanda terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biri kimi çıxış edir.

Dünya dövlətlərin əksəriyyəti narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizəni özünün gündəlik fəaliyyətinin ən vacib istiqamətlərindən biri hesab edir. Bütövlükdə bəşəriyyətin müasir gündəliyində duran ən vacib məsələlərdən biri narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı səmərəli mübarizənin təşkil edilməsidir.

Ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində dövlət siyasətinin strateji istiqamətləri müəyyən olunmuş, təşkilati-hüquqi, institusional və praktiki tədbirlər həyata keçirilmiş, narkotiklərlə mübarizə üzrə beynəlxalq təşəbbüslərdə iştirak daha intensiv xarakter almışdır.

Ulu öndər Heydər Əliyev hələ 1997-ci ildə Birləşmiş Millətlər Təşkilatının Yaxın və Orta Şərqdə Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Nəzarət üzrə Yardımçı Komissiyasının 32-ci Sesiyasının açılışında çıxış edərək demişdir: "Biz dünyada ümumbəşəri problemlərin tezliklə həll olunmasının tərəfdarıyıq və bundan sonra da bütün insanlar üçün böyük təhlükə olan narkomniya və narkobiznеslə mübarizənin ön sıralarında olacağıq".

Proqram xarakterli bu sözlər Azərbaycan Respublikasında narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə dövlət səviyyəsində əhəmiyyət verildiyini göstərməklə gələcəkdə görüləcək işlərin əsas istiqamətlərini müəyyən etmişdir.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir.

Eyni zamanda həyata keçirilən irimiqyaslı tədbirlərin icrası nəticəsində bütün sahələrdə gedən inkişaf və aparılan islahatlar ölkədə insanların sağlamlığının qorunması, mənəvi-əxlaqi dəyərlərin aşınmasının qarşısının alınması zərurəti narkomanlığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin əhəmiyyətini ciddi şəkildə artırmışdır.

Azərbaycan dövləti vətəndaşlarının və əsasən də gəncləri ölkədə gedən proseslərdə həm iştirakçı, həm də faydalanan sosial qrup kimi qəbul edərək, gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilmişdir. Bütün sahələrdə gənclərin fəallığı, təşəbbüskarlığı,

## ÖN SÖZ

irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artmış, könüllülük hərəkatı genişlənmişdir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənabları Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda öz çıxışında vurğulamışdır ki, "Narkotik vasitələr insanı uçuruma aparır, özünü də, ailəsini də, yaxınlarını da bədbəxt edir, bir dərd olur. Ona görə bu zəhər ümumiyyətlə təmizlənməlidir."

Narkomaniya ilə mübarizənin məhz dövlət və ümummili siyasət səviyyəsinə qaldırılması, narkomanlığın profilaktikasına ciddi əhəmiyyət verilməsi, dövlətin bu istiqamətdə prinsipal və barışmaz mövqeyi, narkomanlığın qarşısının alınmasında dövlət və hüquq mühafizə orqanlarından konkret nəticələrin tələb edilməsi Azərbaycanın bugünkü münasibətini xarakterizə edir.

Hesabat dövründə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekur-sorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizədə dövlətin və vətəndaş cəmiyyəti təşkilatlarının səylərinin birləşdirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi sayəsində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi istiqamət-ində aparılan işlərin səmərəliliyinin daha da yüksəldilməsi üçün müvafiq zəruri tədbirlər görülmüşdür.

Belə ki, bu sahədə yaradılmış hüquqi baza və aparılmış islahatlar nəticəsində hüquq mühafizə orqanları tərəfindən müasir telekommunikasiya və informasiya vasitə - lərinin imkanlarından istifadə edilərək narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə işini gücləndirməklə 2021-ci il ərzində 8535 fakt üzrə 6 ton 607 kiloqramdan artıq müxtəlif növ narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyədən çıxarılmış, müsadirə edilmiş narkotik vasitələrin və psixotrop maddələrin 4 ton 91 kiloqramının ölkəmizə qaçaqmalçılıq yolu ilə gətirilmiş, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar başlanmış cinayət işlərinin istintaqı nəticəsində 6512 nəfərin cinayət məsuliyyətinə cəlb edilmiş, cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 70 nəfərinin xarici ölkə vətəndaşı olmuşdur.

Eyni zamanda narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində ayrı-ayrı sosial təbəqələr üzrə təbliğat işinin təşkili əvvəlki illərdə olduğu kimi sistemli xarakter daşımış müvafiq dövlət qurumlarının, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin səylərinin artırılması, narkomanlığa qarşı profilaktik tədbirlərin və maarifləndirmə işinin təşkili məqsədi ilə aidiyyəti orqanlar tərəfindən birgə tədbirlər planları hazırlanaraq kompleks şəkildə gücləndirilməsi təmin edilmişdir.

Bununla yanaşı, inzibati resurslardan da istifadə etməklə həyata keçirilən proqressiv mübarizə üsulları və ən müasir texniki vasitələrin tətbiqi yolu ilə maddi-texniki bazanın əhəmiyyətli şəkildə möhkəm-ləndirilmiş və bu sahədə qarşıda duran vəzifələrin icrası, narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısının alınması sahəsində fəaliyyətlərini gücləndirilməsi,

## ÖN SÖZ

müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, narkoloji müalicə müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, reabilitasiya mərkəzlərinin yaradılması, yeniyetmə və gənclər arasında təbliğat və maariflәndirmə işlərinin təsirli vasitələrlə təşkili, narkomanlığın xüsusilə geniş yayıldığı şəhər və rayonlarda narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı kompleks tədbirlər hazırlayıb həyata keçirilməsi və digər zəruri tədbirlərin icra edilməsi istiqamətində səmərəliliyin daha da artırılması ilə bağlı aidiyyəti qurumlar qarşısında konkret vəzifələrin qoyulmasına dair müvafiq qərarlar qəbul edilmişdir.

Əminliklə deyə bilərik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəmizin inkişafı ilə bağlı aydın və konkret baxışlara, siyasi iradəyə malik olması, narkotizmin hər cür təzahürünə qarşı prinsipal mövqeyi, narkomaniyanın dəf edilməsində dövlət və hüquq mühafizə orqanlarından konkret nəticələrin tələb edilməsi müəyyən edilmiş vəzifələrin reallaşmasına təminat verir.

Beləliklə, dünya birliyi ölkələri arasında özünün layiqli yerini tutmaqda olan Azərbaycan Respublikasında ümumbəşəri bəla olan narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi ölkəmizin bugünkü və gələcək nəsilləri qarşısında vəzifəmiz və borcumuzdur.

**Əli Əhmədov**

**Azərbaycan Respublikası Baş nazirinin müavini,
Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz
Dövriyyəsinə Qarşı Mübarizə üzrə
Dövlət Komissiyasının sədri**

# TƏŞKİLATİ TƏDBİRLƏR

## TƏŞKİLATİ TƏDBİRLƏR

Ötən ilin fevral ayının 16-da Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı 2020-ci ildə aidiyyəti nazirlik, komitə və digər təşkilatlar tərəfindən görülmüş işlərin müzakirəsi üzrə Dövlət Komissiyasının videorabitə vasitəsilə iclası keçirilmiş və qarşıda duran vəzifələrin icrası, o cümlədən ixtisaslaşmış beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığın davam etdirilməsi, qanunvericilik aktlarının təkmilləşdirilməsi, təbliğat-təşviqat məqsədli maarifləndirmə işlərinin gücləndirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi qərara alınmışdır.






2021-ci ilin avqust ayının 6-da həmin ilin 6 ayı ərzində aidiyyəti nazirlik, komitə və digər təşkilatlar tərəfindən görülmüş işlərin müzakirəsi üzrə keçirilmiş Dövlət Komissiyasının iclasında Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti və qarşıda duran vəzifələr ətraflı müzakirə edilərək, gömrük-sərhəd keçid məntəqələrində tranzit yükdaşımalarına nəzarətin gücləndirilməsi, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması, təbliğat və maarifləndirmə işlərinin səmərəliliyinin artırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi qərara alınmışdır.



## TƏŞKİLATİ TƏDBİRLƏR

2021-ci il avqust ayının 19-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında Dövlət Komissiyasının sədrinin və kütləvi informasiya vasitələrinin rəhbərlərinin iştirakı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizədə kütləvi informasiya vasitələrinin rolu" mövzusunda keçirilmiş görüşdə aidiyyəti dövlət qurumları tərəfindən sosial çarxların hazırlanması və kütləvi informasiya vasitələrində geniş yayımlanması, narkomanlığın zərəri ilə bağlı sənədli filmlərin və sujetlərin çəkilməsi, müəllif yazılarının hazırlanması və jurnalist araşdırmalarının aparılması, aidiyyəti dövlət orqanlarının mütəxəssislərini cəlb etməklə televiziya kanallarında xüsusi verilişlərin təşkil edilməsi məqsədəuyğun hesab edilərək, bu istiqamətlərdə zəruri işlərin yerinə yetirilməsi qərara alınmışdır.





2021-ci il avqust ayının 27-də Dövlət Komissiyası sədrinin, respublikanın şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyaların sədrlərinin iştirakı ilə "Narkomanlığa qarşı mübarizədə şəhər və rayon komissiyalarının rolu" mövzusunda keçirilmiş videokonfransda Dövlət Proqramının və Dövlət Komissiyasının İş Planının müvafiq bəndlərinin icrasına nəzarətin artırılması, aparılan maarifləndirmə işlərinin davamlılığının təmin edilməsi, həyata keçirilən tədbirlərin nəticələrinin təhlil edilərək qiymətləndirilməsi və təbliğat işlərinin təsirliyinin artırılması istiqamətində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın mütəmadi xarakter daşımasının təmin edilməsi məqsədilə müvafiq tapşırıqlar verilmişdir.



## TƏŞKİLATİ TƏDBİRLƏR

2021-ci il noyabr ayının 25-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında Dövlət Komissiyasının sədrinin, Milli Televiziya və Radio Şurasının, Medianın İnkişafı Agentliyinin və ölkədə fəaliyyət göstərən aparıcı kütləvi informasiya vasitələrinin rəhbərlərinin iştirakı ilə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilən tədbirlərə dair aparılan monitorinqin nəticələri müzakirə edilmiş, müvafiq mövzuda işlərin davamlılığının təmin edilməsi ilə əlaqədar zəruri tövsiyələr və göstərişlər verilmişdir.





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.23-cü yarımbəndinin icrası ilə əlaqədar narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində 2020-ci ildə görülmüş işlərə dair hesabat hazırlanaraq, jurnal formasında nəşr edilmişdir.





# NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ

## NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.2.1-ci yarımbəndinə müvafiq olaraq, "Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17.11.2021-ci il tarixli 354 nömrəli Qərarı ilə təsdiq olunmuşdur.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.2.5-ci yarımbəndinə uyğun olaraq, çağırışçıların, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanların, birbaşa kadr zabit heyətinə könüllü daxil olanların və həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) icbari narkoloji müayinədən keçirilməsi (ekspress test üsulu ilə) və bu yolla narkomanlığın erkən müəyyən edilməsi və profilaktikası məqsədilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası qanunlarının və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 sentyabr tarixli 581 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının layihələri hazırlanaraq Nazirlər Kabinetinin 02.09.2021-ci il tarixli 18/631 nömrəli məktubu ilə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir.

Qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut hesab edilmiş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının, qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin), habelə narkotik

vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək nümunə götürülməklə məhv edilməsini və ya istifadəsi mümükün olduqda müvafiq dövlət orqanına (qurumuna) verilməsini nəzərdə tutan "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi Nazirlər Kabinetinin 2021-ci il 19 noyabr tarixli 18/878 nömrəli məktubu ilə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.2.6-cı yarımbəndinə müvafiq olaraq, Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli qanunları ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda və "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nda Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli qanunları ilə bir sıra dəyişikliklər edilmişdir.



# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ



## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

2021-ci ildə narkotiklərlə mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlıq inkişaf etdirilmişdir. Bu məqsədlə aidiyyəti dövlət qurumlarının mütəxəssislərinin Hüquq mühafizə Təlimləri üzrə Avropa İttifaqı Agentliyinin (CEPOL) Şərq Tərəfdaşlığı ölkələri üçün həyata keçirdiyi "TOPCOP" adlı layihəsi çərçivəsində keçirilən görüşdə,




Avropa Şurasının Narkotik və Asılılıqlar üzrə Beynəlxalq Əməkdaşlıq Qrupunun (Pompidu Qrupu) daimi müxbirlərinin 89-cu iclasında, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə Regional İnformasiya və Əlaqələndirmə Mərkəzinin (MARİƏM) üzv dövlətlərinin milli əlaqələndirici qurumlarının mütəxəssislərinin işçi görüşündə,



”Narkotik xidmətin fəaliyyət təcrübəsi” mövzusunda ümumrusiya elmi-praktik konfransında,



“Xəzər dənizində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq” mövzusunda Xəzəryanı ölkələrin nümayəndələrinin birgə onlayn konfransında, eyni zamanda Xəzəryanı ölkələrin gömrük xidmətlərinin hüquq mühafizə bölmələrinin ekspertlərinin videokonfrans formatında keçirilmiş iclasında, BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının (NVK) bərpa olunan 64-cü sessiyasında, Ümumdünya Gömrük Təşkilatının milli əlaqələndirmə qovşaqlarının 20-ci iclasında və digər tədbirlərdə iştirakı təmin edilmişdir.



# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

802

Qaynar xətt:

www.nmdk.gov.az

info@nmdk.gov.az

## NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.38-ci yarımbəndinə uyğun olaraq, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmış "802 qaynar xətt" telefon xidmətinin fəaliyyət istiqamətlərinə dair videoçarxın Bakı şəhərinin küçə və prospektlərində olan reklam lövhələrində, metro stansiyalarında olan monitorlarda, özəl ticarət və tibb mərkəzlərində, habelə ölkə üzrə bütün televiziya kanallarının efirlərində mütəmadi olaraq yayımlanması təmin edilmişdir.





Bununla əlaqədar qeyd edilməlidir ki, ötən ildə "802 qaynar xətt" telefon xidmətinə 1130 müraciət daxil olmuş, onlardan 204-ü narkotik vasitələrin qanunsuz satışı (134 müraciət əsasında cinayət işi başlanılıb), 359-u narkomaniyadan müalicə, 567-si isə digər məsələlərlə (təkrar müraciətlər, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olmuşdur. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 563 məktub ünvanlanmış, digər zəruri tədbirlər görülmüşdür.

Eyni zamanda 802 qaynar xətt telefon xidmətinin maddi-texniki bazası gücləndirilmiş, fəaliyyət istiqaməti təkmilləşdirilmişdir.














Dövlət Komissiyasının www.nmdk.gov.az internet saytında olan "Onlayn müraciət" bölməsinə 27 müraciət daxil olmuş, onlardan 18-i narkotik vasitələrin qanunsuz satışı, 9-u isə narkomaniyadan müalicə ilə bağlı olmuşdur.



**Yeni Müraciət:**

Kimdən info@nmdk.gov.az Tarix 2022-02-28 10:14

| | |
|---|---|
| **Adı Soyadı Ata adı** | Teymur Baxşəliyev Ağali |
| **Ölkə** | Azərbaycan |
| **Şəhər** | Yevlax şəhəri |
| **Ünvan** | Fizuli küçəsi döngə 1 |
| **Təvəllüd** | 1977 |
| **Telefon** | 070-809-92-02 |
| **E-poçt** | Etibar ismayilzade@mail.ru |
| **Sosial Durum** | işsiz |
| **Cinsi** | kişi |
| **Müraciətin növü** | Təklif |
| **Müraciətin xarakteri** | Fərdi |

**Mesaj:**

Salam sizdən xahiş edirəm ki qardaşım narkotik istifadəçisidi və bunan əziyyət çəkir özü öz razılığı ilə sizə müraciət edir ki ona köməklik edesiz sizdən xahiş edirəm ki qardaşima köməklik edin .

Beləliklə, "802 qaynar xətt" telefon xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısının alınması məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təşkil edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında cinayət işlərinin başlanılması və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələrin götürülməsi təmin edilmiş, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilmiş, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək göstərilmiş, vətəndaşlara mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilmişdir.

# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR




Narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısının alınmasında vətəndaşların aktiv fəaliyyət göstərməsi üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübirizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun rəsmi sosial şəbəkə hesabları (feysbuk, instaqram, yutub, teleqram, twitter) yaradılmış, həmin hesabların ictimaiyyət arasında geniş təbliğ olunması təmin edilmişdir.












# HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

2021-ci ildə hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 8535 cinayət faktı aşkarlanmışdır. Onlardan 3267-si narkotik vasitələrin qanunsuz satışı, 4780-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 379-u qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 109-u isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olmuşdur.




Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 6 ton 607 kq 123,927 qr narkotik vasitələrin və psixotrop maddələrin 3 ton 637 kq 450,107 qr-nı heroin, 1 ton 266 kq 430,794 qr-nı marixuana, 827 kq 729,995 qr-nı tiryək, 74 kq 718,36 qr-nı həşiş, 90 qr-nı kokain və 197 kq 894,9 qr digər narkotik vasitələr, 602 kq 809,771 qr-nı psixotrop maddələr təşkil etmişdir. Həmçinin göstərilən dövr ərzində 55099 ədəd metadon, 49471 ədəd çətənə bitkisi, 2 kq 800 qr və 15 litr prekursor, 6 kq 613,425 qr güclü təsir edən maddələr, 132,5 qr zəhərli maddələr qanunsuz dövriyyədən götürülmüşdür.

### 2020-2021-ci illərdə qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr

| | 2020-ci il | 2021-ci il | FƏRQ |
|---|---|---|---|
| CƏMİ | 4 ton 041 kq 592,2 qr | 6 ton 607 kq 123,927 qr | +2 ton 565 kq 531,727 qr |
| MARİXUANA | 919 kq 272,9 qr | 1 ton 266 kq 430,794 qr | +347 kq 157,894 qr |
| HƏŞİŞ | 90 kq 426,9 qr | 74 kq 718,36 qr | -15 kq 708,54 qr |
| TİRYƏK | 304 kq 513,7 qr | 827 kq 729,995 qr | +523 kq 216,295 qr |
| HEROİN | 2 ton 374 kq 323,6 qr | 3 ton 637 kq 450,107 qr | +1 ton 263 kq 126,507 qr |
| KOKAİN | 1 kq 435,3 qr | 90 qr | -1 kq 345,3 qr |
| PSİXOTROP MADDƏLƏR VƏ DİGƏRLƏRİ | 351 kq 619,8 qr | 800 kq 704,671 qr | +449 kq 084,871 qr |

## 2021 -ci il ərzində qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr




## 2021 -ci il ərzində hüquq mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürlümüş narkotik vasitələr



## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Təqdim olunan hesabatlar təhlil olunarkən müəyyən edilmişdir ki, ötən il ərzində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı aşkar edilmiş 8358 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 3 ton 362 kq 036,8 qr narkotik vasitələr və psixotrop maddələr (1 ton 150 kq 377,8 qr marixuana, 1 ton 489 kq 889,2 qr heroin, 197 kq 692,9 qr tiryək, 8 kq 714,9 qr həşiş, 197 kq 842,7 qr digər narkotik vasitələr, 317 kq 519,3 qr psixotrop maddələr), habelə 6 kq 009 qr güclü təsir edən maddələr, 2 kq 800 qr prekursor və 132,5 qr zəhərli maddələr çıxarılmış, qanunsuz əkilib-becərilmiş 49471 ədəd çətənə bitkisi müəyyən edilərək müvafiq tədbirlər görülməsi üçün istintaq orqanlarına verilmişdir.





Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən aşkar edilmiş 53 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 2 ton 522 kq 767,889 qr narkotik vasitələr və psixotrop maddələr (1 ton 784 kq 597 qr heroin, 503 kq 303 qr tiryək, 90 qr kokain, 43 kq 671 qr həşiş, 68 qr marixuana, 18 qr digər narkotik vasitələr,191 kq 020,889 qr psixotrop maddələr), habelə 309 qr (27900 ədəd) güclü təsir edən maddələr və 15 litr prekursor çıxarılmışdır.





Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aşkar edilmiş 5 fakt üzrə qanunsuz dövriyyədən 33 kq 057,99 qr narkotik vasitələr (19 kq 022,84 qr heroin, 5 kq 722,54 qr tiryək, 5 kq 103,45 qr marixuana, 3 kq 209,16 qr metamfetamin və 2497 ədəd metadon) müsadirə edilmişdir.





## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən aşkar edilmiş 62 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 689 kq 043,648 qr narkotik vasitələr və psixotrop maddələr (343 kq 792,167 qr heroin, 120 kq 996,855 qr tiryək, 110 kq 864,544 qr marixuana, 22 kq 325,86 qr həşiş, 27,6 qr və 52602 ədəd metadon, 91 kq 036,622 qr və 108 ədəd həb psixotrop maddələr), habelə 2751 ədəd həb, 29413 kapsul və 294 flakon güclü təsir edən maddə çıxarılmışdır. Bununla yanaşı, Xidmət tərəfindən 18,7 hektar sahədə yaş kütləsi 16 ton 668 kq olan 57715 ədəd yabanı halda bitmiş narkotik xassəli çətənə və xaş-xaş bitkiləri müəyyən edilərək müvafiq qaydada məhv edilmişdir.





Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən aşkar edilmiş 57 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 217,6 qr narkotik vasitə (148,9 qr heroin, 6,6 qr həşiş, 14,7 qr tiryək, 17 qr marixuana, 6,6 qr digər narkotik vasitələr və 23,8 qr psixotrop maddələr) çıxarılmışdır.





## 2021-ci ildə ekspertiza olunan narkotik vasitələrin və psixotrop maddələrin növü və çəkisi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən məhkəmə və hüquq mühafizə orqanlarının qərarlarına əsasən təyin edilmiş ekspertizalar əsasında narkotik vasitələr, psixotrop maddələr onların prekursorları üzrə 10.173 ekspert rəyi və arayış verilmişdir. 2020-ci ilin nəticələri ilə müqayisədə bu növ ekspertizaların sayı 3563 vahid və ya 53,9% artmışdır.

| Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları | | sayı | çəkisi |
|---|---|---|---|
| 1. | Marixuana | 2241 | 1 t 464 kq 140,157 qram |
| 2. | Həşiş mqətranı | 37 | 58 kq 370,878 qram |
| 3. | Çətənə (kannabis) | 467 | 19 t 176 kq 357,835 qram |
| 4. | Xaşxaş bitkisi | - | - |
| 5. | Xaş-xaş kütləsi | 1 | 0,62 |
| 6. | Sintetik kannabinoidlər (spice) | 11 | 77,414 qram |
| 7. | Heroin | 4883 | 2 t 897 kq 729,987 qram |
| 8. | Tiryək | 292 | 524 kq 733,141 qram |
| 9. | Metadon | 85 | 4 kq 722,09 qram |
| 10. | Metamfetamin | 1829 | 444 kq 951,257 qram |
| 11. | Kokain | 9 | 146,791 qram |
| 12. | MDA, MDMA (ekstazi) | 15 | 614,250 qram |
| 13. | Zəhərli maddə | 12 | 5 kq 191,318 qram |
| 14 | Prekursor | 6 | 1 kq 386,083 qram |
| 15. | Farmpreparatlar:<br>- digər dərman preparatları | 32<br>64 | Psix: 50,652 qram<br>GTE: 2 kq 642,159 qram |
| 16. | Yeni psixoaktiv maddələr YPM : (a- PVP, MDMB 4-en PİNAKA) | 4 | 20,770 qram |
| 17. | LSD | 3 | 0,0166 qram |
| 18. | digər maddələr | 173 | Müvafiq Siyahılara daxil edilmədiyi üçün çəkisi üzrə qeydiyyat aparılmamışdır |

**Qeyd: Ekspertiza olunan narkotik vasitələrin və psixotrop maddələrin sayı, növü, miqdarı və çəkisi barədə digər məlumatlar Daxili İşlər Nazirliyinin müvafiq qurumu tərəfindən ekspertizadan keçirilmişdir.**

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Ötən ilin 19-20 may tarixlərində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun təşkilatçılığı ilə 591 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılan 1 ton 737 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə və psixotrop maddə, o cümlədən 21190 ədəd çətənə bitkisi aidiyyəti təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə yandırma yolu ilə məhv edilmişdir.



## Narkotik vasitələrin yeni "qarabazar" qiyməti

| Narkotik vasitələrin 1 kq dəyəri AZN ilə (minimum/maksimum) | | | |
|---|---|---|---|
| | 01.01.2022-ci il tarixə olan vəziyyət | | |
| | | minumum | maksimum |
| Topdan | Tiryək | 3000 | 3500 |
| | Heroin | 15000 | 20000 |
| | Marixuana | 6000 | 10000 |
| | Həşiş | 2500 | 3000 |
| | Kokain | 200000 | 200000 |
| | Metamfetamin | 18000 | 20000 |
| Pərakəndə | Tiryək | 7000 | 10000 |
| | Heroin | 30000 | 45000 |
| | Marixuana | 25000 | 30000 |
| | Həşiş | 4000 | 5000 |
| | Kokain | 200000 | 200000 |
| | Metamfetamin | 28000 | 30000 |

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Hesabat dövründə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 810,469 hektar sahədən çəkisi 174 ton 970 kq olan 433716 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilmişdir.









Ötən il ərzində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 6512 nəfər cəlb edilmişdir ki, onlardan 16-18 yaşadək 11 nəfər, 18-25 yaşadək 464 nəfər, 26-29 yaşadək 1131 nəfər, 30 yaş və ondan yuxarı 4906 nəfər təşkil edir. Həmin şəxslərdən 6376-sı kişi, 136-sı qadın olmuşdur. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 70 nəfəri xarici ölkə vətəndaşlarıdır.

### 2021 -ci il ərzində narkotik vasitələrinin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyətinə cəlb olunmuş şəxslər



| 2020/2021-ci illər ərzində cinayət məsuliyyətinə cəlb olunanlar barədə müqayisəli məlumat | | | | |
|---|---|---|---|---|
| | | 2020 | 2021 | Fərq |
| 1. | Cəmi | 4233 | 6512 | +2279 |
| 2. | 16-18 yaşadək | 5 | 11 | +6 |
| 3. | 18-25 yaşadək | 321 | 464 | +143 |
| 4. | 26-29 yaşadək | 738 | 1131 | +393 |
| 5. | 30 yaş və ondan yuxarı | 3169 | 4906 | +1737 |
| 6. | İşləməyən və oxumayan | 3000 | 4831 | +1831 |
| 7. | Kişilər | 4150 | 6376 | +2226 |
| 8. | Qadınlar | 83 | 136 | +53 |
| 9. | Xarici ölkə vətəndaşları | 75 | 70 | -5 |
| 10. | Əvvəllər cinayət törətmişlər | 1245 | 2388 | +1143 |
| 11. | Əvvəllər xüsusi qeydiyyatda olmuşlar | 22 | 23 | +1 |

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Məsuliyyətə cəlb edilmiş 70 xarici ölkə vətəndaşından 25-i İran İslam Respublikası, 12-si Gürcüstan, 15-i Rusiya, 13-ü Türkiyə, 3-ü Ukrayna,1-i Pakistan və 1-i Hindistan vətəndaşları olmuşdur.




2021-ci il ərzində hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 244 fakt aşkar edilmiş (DİN-129, DGK-48, DTX-5, DSX-62) və həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 4 ton 090 kq 958,638 qr olan müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr (DİN-866 kq 061 qr, DGK-2 ton 502 kq 796 qr, DTX-33 kq 057,99 qr, DSX-689 kq 043,648 qr) çıxarılmışdır.

| 2021 | Qaçaqmalçılıq yolu ilə aşkar edilmiş faktlar | Qrup halında aşkar edilmiş faktlar |
|---|---|---|
| Daxili İşlər Nazirliyi | 129 fakt | 431 fakt |
| Dövlət Gömrük Komitəsi | 48 fakt | 3 fakt |
| Dövlət Təhlükəsizliyi Xidməti | 5 fakt | - |
| Dövlət Sərhəd Xidməti | 62 fakt | 18 fakt |
| Cəmi | 244 fakt | 452 fakt |

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 452-si qrup halında (DİN-431,DGK-3, DSX-18) törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 1 ton 973 kq 631,212 qr olan (DİN-1 ton 678 kq 375,7 qr, DGK-18 kq 132 qr, DSX-277 kq 123,512 qr) narkotik vasitələr müsadirə edilmişdir.

**2020/2021-ci illər ərzində ölkə üzrə narkotiklərlə əlaqəli aşkar olunan faktlar barədə müqayisəli məlumat**

| | 2020 -ci il | 2021 -ci il | Fakt | %-lə |
|---|---|---|---|---|
| Cəmi | 5221 | 8535 | +3314 | +38,8 |
| Satış | 1893 | 3267 | +1374 | +42 |
| Saxlama | 2903 | 4780 | +1877 | +39,3 |
| Əkin | 323 | 379 | +56 | +14,8 |
| Digərləri | 102 | 109 | +7 | +6,4 |

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Təhlil göstərir ki, 2020-ci illə müqayisədə ötən il ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 3314, qanunsuz satış ilə bağlı faktların sayı 1374, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 1877, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 56, bu kateqoriyadan olan digər cinayətlərlə bağlı faktların sayı isə 7 vahid artmışdır.

2020-2021 -ci illər ərzində hüquq mühafizə orqanları tərəfindən aşkar edilmiş faktlar barədə müqayisəli məlumat

| | 2020-ci il | 2021-ci il | Fakt |
|---|---|---|---|
| Cəmi | 5221 | 8535 | +3314 |
| Daxili İşlər Nazirliyi | 4974 | 8358 | +3384 |
| Dövlət Gömrük Komitəsi | 110 | 53 | -57 |
| Dövlət Təhlükəsizliyi Xidməti | 13 | 5 | -8 |
| Dövlət Sərhəd Xidməti | 57 | 62 | +5 |
| Ədliyyə Nazirliyi Penitensiar Xidməti | 67 | 57 | -10 |

Həmçinin, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 2 ton 565 kq 531 qr, yabanı halda müəyyən edilmiş narkotik xassəli bitkilərin yaş kütləsi 21 ton 869 kq, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 2279 nəfər, onlardan qadınların sayı 53 nəfər artmışdır.

Narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı faktların sayı 14 fakt, məsuliyyətə cəlb edilmiş xarici ölkə vətəndaşlarının sayı 5 nəfər azalmışdır.

Maliyyə Monitorinqi Xidməti tərəfindən 2021-ci il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsindən əldə edilən pul vəsaitinin və ya digər əmlakın leqallaşdırılmasının aşkarlanması və qarşısının alınması üzrə Baş Prokurorluqdan daxil olan 3, Daxili İşlər Nazirliyindən 1, Dövlət Gömrük Komitəsindən 2 sorğu üzrə müvafiq araşdırmalar aparılaraq, məlumatlar aidiyyəti üzrə təqdim edilmişdir.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi barədə şəhər və rayonlar üzrə ayrı-ayrılıqda əldə olunan statistik məlumatlara dair interaktiv xəritə hazırlanmış və fəaliyyətinə dair maddi-texniki baza yaradılmışdır.

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR




İnteraktiv xəritədə aidiyyəti dövlət qurumlarının təqdim etdiyi statistik göstəricilər əsasında respublikanın şəhər və rayonları üzrə narkotik vasitələrin qanunsuz dövriyyəsi və tərkibində narkotik maddə olan bitkilərin kultivasiya edilməsi ilə bağlı qeydə alınan cinayət faktları (satış, saxlama, əkin, digər), həmin faktlar üzrə qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələrin növü, miqdarı, narkotiklərlə bağlı məsuliyyətə cəlb edilən şəxslər, o cümlədən azyaşlılar və narkotik istifadəçiləri barədə rüb və illər üzrə müqayisəli məlumatlar öz əksini tapmışdır.



## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Eyni zamanda interaktiv xəritədə yaradılmış axtarış modulu şəhər və rayonları üzrə narkotik vasitələrin qanunsuz dövriyyəsi və qeydə alınan cinayət faktları, həmin faktlar üzrə qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələrin növü və sair barədə məlumatların xüsusi meyarlar və intervallar üzrə əldə olunmasına imkan yaradır.




2021-ci il ərzində hüquq mühafizə orqanları və Səhiyyə Nazirliyi tərəfindən təqdim olunmuş məlumatlar əsasında şəhər və rayonlar üzrə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı qeydə alınan cinayət faktları, həmin faktlar üzrə qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələr, narkotiklərlə bağlı məsuliyyətə cəlb edilən şəxslər, narkotik istifadəçiləri və 1000 nəfərə düşən narkomanların sayı barədə;

| Şəhər və rayonlar | Cinayət faktları | Narkotik vasitələr və psixotrop maddələr | Cinayət məsuliyyətinə cəlb olunanlar | Narkotik istifadəçiləri | 1000 nəfərə düşən narkomanların sayı |
|---|---|---|---|---|---|
| Lənkəran | 459 fakt | 123 kq 606,3 qr | 443 nəfər | 3764 nəfər | 16 nəfər |
| Sumqayıt | 587 fakt | 180 kq 532,3 qr | 399 nəfər | 2897 nəfər | 8 nəfər |
| Şirvan | 259 fakt | 9 kq 170,2 qr | 229 nəfər | 1038 nəfər | 12 nəfər |
| Cəlilabad | 264 fakt | 216 kq 151,2 qr | 171 nəfər | 775 nəfər | 3 nəfər |
| Astara | 139 fakt | 1 ton 129 kq 033,7 qr | 111 nəfər | 533 nəfər | 5 nəfər |
| Salyan | 126 fakt | 59 kq 360,8 qr | 100 nəfər | 1295 nəfər | 9 nəfər |
| Gəncə | 301 fakt | 79 kq 388,3 qr | 193 nəfər | 985 nəfər | 3 nəfər |
| Biləsuvar | 129 fakt | 941 kq 961,6 qr | 137 nəfər | 334 nəfər | 3 nəfər |
| Yevlax | 154 fakt | 29 kq 554,7 qr | 123 nəfər | 633 nəfər | 5 nəfər |
| Abşeron | 287 fakt | 225 kq 400,7 qr | 219 nəfər | 766 nəfər | 4 nəfər |
| Cəmi | 2705 fakt | 2 ton 994 kq 159,8 qr | 2125 nəfər | 13020 nəfər | |

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

| Rayonlar | Cinayət faktları | Narkotik vasitələr və psixotrop maddələr | Cinayət məsuliyyətinə cəlb olunanlar | Narkotik istifadəçiləri | 1000 nəfərə düşən narkomanların sayı |
|---|---|---|---|---|---|
| Binəqədi | 481 fakt | 173 kq 885,2 qr | 336 nəfər | 824 nəfər | 3 nəfər |
| Xəzər | 299 fakt | 104 kq 533,2 qr | 249 nəfər | 790 nəfər | 5 nəfər |
| Qaradağ | 180 fakt | 161 kq 684,8 qr | 153 nəfər | 402 nəfər | 3 nəfər |
| Nərimanov | 228 fakt | 61 kq 161,2 qr | 152 nəfər | 417 nəfər | 2 nəfər |
| Nəsimi | 310 fakt | 73 kq 592,3 qr | 212 nəfər | 863 nəfər | 4 nəfər |
| Sabunçu | 639 fakt | 218 kq 685,3 qr | 432 nəfər | 1602 nəfər | 6 nəfər |
| Səbail | 114 fakt | 98 kq 163,2 qr | 98 nəfər | 312 nəfər | 3 nəfər |
| Nizami | 228 fakt | 52 kq 472,4 qr | 164 nəfər | 561 nəfər | 2 nəfər |
| Suraxanı | 509 fakt | 88 kq 431 qr | 288 nəfər | 1005 nəfər | 5 nəfər |
| Yasamal | 283 fakt | 145 kq 231,1 qr | 225 nəfər | 2139 nəfər | 9 nəfər |
| Xətai | 247 fakt | 158 kq 801,3 qr | 164 nəfər | 835 nəfər | 3 nəfər |
| Pirallahı | 30 fakt | 8 kq 848,4 qr | 14 nəfər | 63 nəfər | 3 nəfər |
| Cəmi | 3548 fakt | 1 t 345 kq 489,4 qr | 2487 nəfər | 9813 nəfər | |

# 2015-2021-ci illər ərzində hüquq mühafizə orqanları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri

2015-2021-ci illər ərzində Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidməti tərəfindən ümumilikdə 21 ton 190 kq 410 qr müxtəlif növ narkotik vasitələr qanunsuz dövriyyədən çıxarılmışdır.



Son 7 il ərzində müsadirə olunan narkotik vasitələrin və psixotrop maddələrin 10 ton 785 kq 892 qr-nı heroin (50,9%), 5 ton 784 kq 872 qr-nı marixuana (27,3%), 2 ton 544 kq 792 qr-nı tiryək (12%), 383 kq 954 qr-nı həşiş (1,8%), 1 ton 685 kq 288 qr-nı digərləri (8%), 5 kq 612 qr-nı kokain (0,02%) təşkil etmişdir.

## 2015-2021-ci illər ərzində qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr




Ümumilikdə hesabat dövri ərzində (2015-2021) hüquq mühafizə orqanları tərəfindən 30205 fakt aşkar edilmişdir ki, onlardan 9580-i narkotik vasitələrin satışı, 18325-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 1857-si qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 443-ü isə digərləri olmuşdur.

## 2015-2021-ci illər ərzində narkotik vasitələrlə bağlı qeydiyyata alınmış cinayət faktları



## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

2015-2021-ci illər ərzində cinayət məsuliyyətinə 24440 nəfər cəlb olunub. Onlardan 485 nəfəri qadın, 437 nəfəri xarici ölkə vətəndaşı olmuşdur.

| İllər | 16-18 yaş | 30 yaşadək | 30 yaşdan yuxarı | Qadınlar | Xarici ölkə vətəndaşları | Cəmi |
|---|---|---|---|---|---|---|
| 2015 | 7 nəfər | 565 nəfər | 2015 nəfər | 52 nəfər | 57 nəfər | 2587 nəfər |
| 2016 | 5 nəfər | 588 nəfər | 2014 nəfər | 37 nəfər | 34 nəfər | 2607 nəfər |
| 2017 | 4 nəfər | 539 nəfər | 1944 nəfər | 36 nəfər | 44 nəfər | 2487 nəfər |
| 2018 | 7 nəfər | 495 nəfər | 2025 nəfər | 43 nəfər | 58 nəfər | 2527 nəfər |
| 2019 | 14 nəfər | 817 nəfər | 2656 nəfər | 98 nəfər | 99 nəfər | 3487 nəfər |
| 2020 | 5 nəfər | 1059 nəfər | 3169 nəfər | 83 nəfər | 75 nəfər | 4233 nəfər |
| 2021 | 11 nəfər | 1595 nəfər | 4906 nəfər | 136 nəfər | 70 nəfər | 6512 nəfər |
| Cəmi | 53 nəfər | 5658 nəfər | 18729 nəfər | 485 nəfər | 437 nəfər | 24440 nəfər |

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə mövcud qanunvericiliyə uyğun olaraq, müsadirə edilmiş külli miqdarda narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını Məhvetmə Komissiyası tərəfindən 2662 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılan 6 ton 006 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə və psixotrop maddə aidiyyəti təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə yandırma yolu ilə məhv edilmişdir.

### 2015-2021-ci illər ərzində məhkəmə hökmləri əsasında barəsində məhvetmə qərarı qəbul edilmiş narkotik vasitələr və psixotrop maddələr



# DÜNYADA NARKOTİKLƏRLƏ BAĞLI VƏZİYYƏTƏ DAİR TƏHLİL



## DÜNYADA NARKOTİKLƏRLƏ BAĞLI VƏZİYYƏTƏ DAİR TƏHLİL

BMT-nin Narkotiklərə və Cinayətkarlığa qarşı mübarizə İdarəsinin 2021-ci il "Narkotiklərə dair Ümumdünya Hesabatı"na əsasən son 10 ildə dünyada narkotik istifadəçilərinin sayı 22% artmışdır.

Hesablamalara əsasən 15-64 yaş arası 275 milyon insan son bir il ərzində narkotik vasitədən istifadə etmişdir və bu da həmin yaş arası ümumdünya əhalisinin təqribən 5,5%-ni təşkil edir.

Marixuana dünyada ən çox istifadə olunan narkotik vasitə olaraq qalmaqdadır. Yuxarıda qeyd olunan 275 milyon istifadəçinin 200 milyonu məhz marixuanadan istifadə edir. Digər hesablamalara görə isə 275 milyon narkotik istifadəçisinin təqribən 36,3 milyonu narkotik asılılıqdan əziyyət çəkir.




Narkotik vasitələrin dünya miqyasında illik dövriyyəsi təqribən 450-500 milyard ABŞ dolları civarındadır. Qeyd olunan göstərici Dünya Bankının son dekada üçün təqdim etdiyi illik ümumdünya ticarət dövriyyəsinin təqribən 2-3%-ni, qlobal Ümumi Daxili Məhsulun isə 0,5-0,6%-ni təşkil edir.

EUROPOL-un bildirdiyi məlumata əsasən Avropada narkotik vasitələrin qanunsuz dövriyyəsinin illik həcmi ən az 30 milyard ABŞ dolları səviyyəsindədir.

Bu isə öz növbəsində, Dünya Bankının Avropa İttifaqına dair son dekada üçün təqdim etdiyi illik ÜDM-in təqribən 0,2-0,3%-ni təşkil edir.

Dünyada müsadirə edilən heroinin 80%-dən çoxu Əfqanıstanda istehsal edilmiş, ötən il Əfqanıstanda tiryək (opium) istehsalının həcmi 8% artaraq 6,8 min tona çatıb. Bu artım dünya bazarlarına 320 ton xalis heroinin çıxması deməkdir.

2021-ci ildə tiryək istehsalından 1,8 milyard dollardan 2,7 milyard dollara qədər gəlir əldə edilib. Əfqanıstandakı qeyri-sabit siyasi vəziyyət tiryək qiymətlərinin təxminən iki dəfə bahalaşmasına səbəb olub ki, bu da istehsalın artması ilə nəticələnə bilər.

Dünyada kokain istehsalında tiryəkdən fərqli olaraq ciddi artım tempi müşahidə olunmaqdadır. Kokain istehsalı 2019-cu ildə 1784 ton səviyyəsində müəyyən edilmişdir. Dünyada kokain istehsalının ən böyük pay sahibləri Latın Amerikası ölkələri, xüsusilə Kolumbiya olmaqda davam edir.

Son dövrlərdə Əfqanıstanda həmçinin sintetik narkotik maddələrin istehsalının genişlənməsi müşahidə olunmuşdur. Belə ki, əvvəlki illə müqayisədə 2019-cu ildə Əfqanıstanda müsadirə edilən metamfetaminin miqdarı 7 dəfə, İranda müsadirə edilən əfqan mənşəli metamfetaminin miqdarı 10%-dən 90%-dək artmışdır.

Pandemiyanın təsiri ilə daha genişlənən yeni tendensiyalar narkotiklərin internet informasiya ehtiyatları və sosial şəbəkələr vasitəsilə satılması hallarının sürətlə artması, müştəri ilə təmassız çatdırılma üsullarından istifadədədir.

Narkotrafikin sosial şəbəkələrə və elektron ticarət platformalarına keçməsi narkotiklərin qanunsuz yayılması imkanlarını əhəmiyyətli dərəcədə artırır.

İnformasiya texnologiyalarının inkişafı nəticəsində narkotik ticarətinin müəyyən hissəsi “Darknet” kimi tanınan internet platformalarının payına düşür. Bu platformalar vasitəsilə son illər ərzində (2017-2020) narkotik vasitələrin qanunsuz dövriyyəsinin dəyəri 315 milyon ABŞ dolları səviyyəsində müəyyən edilmişdir.

Hesabata əsasən dünyada müsadirə edilən heroinin 57% Əfqanıstandan narkotiklərin daşınması üçün istifadə edilən Balkan marşurutu üzrə (Əfqanıstan-Pakistan-İran-Türkiyə (və ya Qafqaz)- Balkan ölkələri) yerləşən ölkələrin və bu marşurutla narkotiklərin çatdırıldığı Avropa ölkələrinin payına düşür. Məsələn, 2019-cu ildə İranda 35 ton, Türkiyədə 20 ton, Azərbaycanda 2 ton, Balkan ölkələrində 1 ton, digər Qərbi və Şərqi Avropa ölkələrində 9 ton heroin müsadirə edilmişdir.

Hesabata əsasən Əfqanıstandan daşınan narkotiklərin 90%-i İrana Pakistanla sərhəd vasitəsilə və yalnız 10%-i birbaşa Əfqanıstanla sərhəd vasitəsilə daxil olur. İrandan narkotiklərin 75%-i daha sonra Türkiyə və ya Qafqaz vasitəsilə daşınır, 2%-i daxildə istifadə edilir və 5%-i Fars körfəzi ölkələrinə ötürülür.

# NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

## NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 69347 nəfər istiqamətləndirilmişdir.

Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 3577 nəfərindən 2603-nün istifadəçi olması müəyyən edilmiş və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilmişdir. Hesabat dövründə 5740 nəfər stasionar müalicədə olmuşdur. Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə 939 xəstə müalicə alır.

**2021-ci il ərzində DİN tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün RNM-nə istiqamətləndirilmiş şəxslər**




Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin məlumatına əsasən 2021-ci il 31 dekabr tarixinə respublika üzrə narkomanlıq diaqnozu ilə qeydiyyatda olanların sayı 34602 nəfər təşkil etmişdir. Həmin şəxslərdən 27106 nəfəri dispanser, 7496 nəfəri profilaktik qeydiyyatında olanlardır.

Onlardan 556 nəfəri qadındır. 24850 nəfər opioid qrupuna aid narkotik istifadəçiləri, 9752 nəfər kannabinoid qrupuna aid narkotik istifadəçiləridir. 2021-ci ildə müvafiq diaqnozla 5603 nəfər qeydiyyata götürülmüş, 4789 nəfər isə qeydiyyatdan çıxarılmışdır.

| Məlumatlar | Ümumi say | Onlardan dispanser qeydiyyatında olanlar | Onlardan profilaktik qeydiyyatında olanlar | Anonimlər |
|---|---|---|---|---|
| Narkomanların ümumi sayı | 34602 | 27106 | 7496 | 360 |
| Qadınların ümumi sayı | 556 | 402 | 154 | - |
| Tosikomanların sayı | 630 | 530 | 100 | - |
| Eyni zamanda bir neçə narkotik maddə qəbul edənlərin sayı | 3107 | 3107 | - | - |
| Qeydiyyata götürülənlərin sayı | 5603 | 3318 | 2285 | - |

## Respublika Narkoloji Mərkəzində qeydiyyatda olan narkomanlar




## Yaş qrupları üzrə



## Qeydiyyatda olan narkotik istifadəçilərinin yaş qrupları

| Yaş qrupları | Ümumi say | Onlardan dispanser qeydiyyatında olan | Onlardan profilaktik qeydiyyatında olan |
|---|---|---|---|
| 14-17 yaş | 14 | 5 | 9 |
| 18-24 yaş | 2313 | 1701 | 612 |
| 25-29 yaş | 5508 | 4146 | 1362 |
| 30-34 yaş | 5897 | 4527 | 1370 |
| 35-39 yaş | 5915 | 4676 | 1236 |
| 40-44 yaş | 4660 | 3709 | 951 |
| 45-49 yaş | 4160 | 3306 | 854 |
| 50-54 yaş | 3010 | 2371 | 639 |
| 55-59 yaş | 1786 | 1479 | 307 |
| 60-64 yaş | 1047 | 919 | 128 |
| 65 yaş və yuxarı | 292 | 264 | 28 |

## Qeydiyyatda olan narkotik istifadəçilərinin sayı və onların qəbul etdiyi narkotik vasitələrin növü

| Şəhər və rayonlar | Qeydiyyatda olan narkotik istifadəçiləri | Opioid qrupuna aid narkotik istifadəçiləri | Kannabinoid qrupuna aid narkotik istifadəçiləri |
|---|---|---|---|
| Bakı şəhəri | 9813 | 8623 | 1190 |
| Lənkəran şəhəri | 3764 | 3264 | 500 |
| Sumqayıt şəhəri | 2897 | 2406 | 491 |
| Salyan rayonu | 1295 | 872 | 423 |
| Şirvan şəhəri | 1038 | 656 | 382 |
| Gəncə şəhəri | 985 | 596 | 389 |
| Cəlilabad rayonu | 775 | 620 | 155 |
| Abşeron rayonu | 766 | 535 | 231 |
| Sabirabad rayonu | 677 | 238 | 439 |
| Digər şəhər və rayonlar | 12592 | 7040 | 5552 |
| Cəmi | 34602 | 24850 | 9752 |

## 2010-2021-ci illər ərzində Respublika Narkoloji Mərkəzində qeydiyyatda olan narkotik istifadəçiləri




2021-ci ildə Azərbaycanda 671 nəfər İnsan immunçatışmazlığı virusuna (İİV) yoluxmuşdur. Bütövlükdə 1987-ci ildən 2021-ci il dekabr ayının sonunadək Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzində İİV diaqnozu təsdiq olunmuş 9372 nəfər qeydiyyata götürülmüşdür (9059-u Azərbaycan vətəndaşı, 313-ü əcnəbi). İİV-ə yoluxanların 6699-u kişi, 2673-ü qadındır. Onlardan 3482-də İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində baş vermişdir. Həmin kateqoriyadan olan şəxslərin 2455 nəfəri hazırda dispanser qeydiyyatındadır.

## 1987-31.12.2021-ci il tarixədək Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi



## 2021-ci il ərzində Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi




**Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yaş qrupu və cinsi mənsubiyyəti üzrə bölünməsi (1987-31.12.2021)**

| YAŞ QRUPU | Azərbaycan vətəndaşları | | | | | | Əcnəbilər | | | | | | Cəmi İİV-ə yoluxmuş şəxslər | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | |
| | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % |
| 0–14 | 163 | 1.8% | 78 | 0.9% | 85 | 0.9% | 2 | 0.6% | | | 2 | 0.6% | 165 | 1.8% | 78 | 0.8% | 87 | 0.9% |
| 15–18 | 35 | 0.4% | 11 | 0.1% | 24 | 0.3% | | | | | | | 35 | 0.4% | 11 | 0.1% | 24 | 0.3% |
| 19–24 | 737 | 8.1% | 367 | 4.1% | 370 | 4.1% | 35 | 11.2% | 15 | 4.8% | 20 | 6.4% | 772 | 8.2% | 382 | 4.1% | 390 | 4.2% |
| 25–29 | 1522 | 16.8% | 1033 | 11.4% | 489 | 5.4% | 53 | 16.9% | 36 | 11.5% | 17 | 5.4% | 1575 | 16.8% | 1069 | 11.4% | 506 | 5.4% |
| 30–39 | 3555 | 39.2% | 2693 | 29.7% | 862 | 9.5% | 106 | 33.9% | 72 | 23.0% | 34 | 10.9% | 3661 | 39.1% | 2765 | 29.5% | 896 | 9.6% |
| 40–49 | 2131 | 23.5% | 1664 | 18.4% | 467 | 5.2% | 74 | 23.6% | 66 | 21.1% | 8 | 2.6% | 2205 | 23.5% | 1730 | 18.5% | 475 | 5.1% |
| 50–59 | 699 | 7.7% | 478 | 5.3% | 221 | 2.4% | 31 | 9.9% | 25 | 8.0% | 6 | 1.9% | 730 | 7.8% | 503 | 5.4% | 227 | 2.4% |
| 60 ≤ | 142 | 1.6% | 96 | 1.1% | 46 | 0.5% | 7 | 2.2% | 6 | 1.9% | 1 | 0.3% | 149 | 1.6% | 102 | 1.1% | 47 | 0.5% |
| Naməlum | 75 | 0.8% | 54 | 0.6% | 21 | 0.2% | 5 | 1.6% | 5 | 1.6% | | | 80 | 0.9% | 59 | 0.6% | 21 | 0.2% |
| Cəmi | 9059 | 100.0% | 6474 | 71.5% | 2585 | 28.5% | 313 | 100% | 225 | 71.9% | 88 | 28.1% | 9372 | 100% | 6699 | 71.5% | 2673 | 28.5% |

**Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yaş qrupu və cinsi mənsubiyyəti üzrə bölünməsi (1987-31.12.2021)**

| YOLUXMA YOLLARI | | Azərbaycan vətəndaşları | | | | | | Əcnəbilər | | | | | | Cəmi İİV-ə yoluxmuş şəxslər | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | |
| | | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % |
| Parenteral yolla | inyeksion narkotik istifadəsi | 3415 | 37.7% | 3342 | 36.9% | 73 | 0.8% | 67 | 21.4% | 58 | 18.5% | 9 | 2.9% | 3482 | 37.2% | 3400 | 36.3% | 82 | 0.9% |
| | Donor qanı | 1 | 0.0% | 0 | 0.0% | 1 | 0.0% | | 0.0% | | 0.0% | | 0.0% | 1 | 0.0% | 0 | 0.0% | 1 | 0.0% |
| | Cəmi | 3416 | 37.7% | 3342 | 36.9% | 74 | 0.8% | 67 | 21.4% | 58 | 18.5% | 9 | 2.9% | 3483 | 37.2% | 3400 | 36.3% | 83 | 0.9% |
| Cinsi yolla | heteroseksual kontakt | 4675 | 51.6% | 2340 | 25.8% | 2335 | 25.8% | 183 | 58.5% | 110 | 35.1% | 73 | 23.3% | 4858 | 51.8% | 2450 | 26.1% | 2408 | 25.7% |
| | homoseksual kontakt | 362 | 4.0% | 362 | 4.0% | | 0.0% | 11 | 3.5% | 11 | 3.5% | | 0.0% | 373 | 4.0% | 373 | 4.0% | | 0.0% |
| | Cəmi | 5037 | 55.6% | 2702 | 29.8% | 2335 | 25.8% | 194 | 62.0% | 121 | 38.7% | 73 | 23.3% | 5231 | 55.8% | 2823 | 30.1% | 2408 | 25.7% |
| Anadan uşağa ötürülmə | | 139 | 1.5% | 69 | 0.8% | 70 | 0.8% | 2 | 0.6% | | 0.0% | 2 | 0.6% | 141 | 1.5% | 69 | 0.7% | 72 | 0.8% |
| Naməlum | | 467 | 5.2% | 361 | 4.0% | 106 | 1.2% | 50 | 16.0% | 46 | 14.7% | 4 | 1.3% | 517 | 5.5% | 407 | 4.3% | 110 | 1.2% |
| Cəmi | | 9059 | 100.0% | 6474 | 71.5% | 2585 | 28.5% | 313 | 100% | 225 | 71.9% | 88 | 28.1% | 9372 | 100.0% | 6699 | 71.5% | 2673 | 28.5% |

**2021-ci il ərzidə qeydiyyata götürülmüş İİV-li şəxslərin yoluxma yolları üzrə bölgüsü**

| YOLUXMA YOLU | Cəmi İİV-ə yoluxanlar | | | | Onlardan Azərbaycan vətəndaşları Cəmi | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Say | onlardan qadınlar | ümumi saydan 15-49 yaşda | 15-49 yaşda qadınla | Say | onlardan qadınlar | ümumi saydan 15-49 yaşda | 15-49 yaşda qadınlar |
| anadan uşağa ötürülməklə | 7 | 4 | | | 7 | 4 | | |
| heteroseksual kontakt nəticəsində | 514 | 205 | 424 | 167 | 501 | 202 | 414 | 164 |
| homoseksual kontakt nəticəsində | 64 | | 58 | | 61 | | 55 | |
| yoluxma yolu naməlum | 9 | 5 | 5 | 3 | 9 | 5 | 5 | 3 |
| inyeksiyon narkotik istifadəsi nəticəsində | 96 | 4 | 80 | 4 | 93 | 4 | 79 | 4 |
| Cəmi | 690 | 218 | 567 | 174 | 671 | 215 | 553 | 171 |

Ötən il ərzində antiretrovirus terapiyasına (ART) cəlb olunan 662 pasiyentdən 102 nəfəri inyeksion narkotik istifadəçisi olmuşdur. 2021-ci ilin 31 dekabr tarixinə isə ART-yə cəlb olunmuş İİV-li xəstələrin ümumi sayı 7078 nəfər təşkil etmişdir ki, onların da 2368 nəfəri inyeksion narkotik istifadəçisidir.

Məhkəmə-Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyində narkotik vasitələrin və psixotrop maddələrin təyini məqsədilə 3720 tədqiqat aparılmışdır.

Həmin tədqiqatlar zamanı 162 halda biomateriallarda tiryək alkaloidləri, 79 halda heroin, 13 halda morfin, 6 halda kodein, 80 halda kannaboidlər, 61 halda amfetamin, 94 halda metamfetamin, 24 halda metadon, 14 halda tramadol, 5 halda preqabalin, 24 halda 1,4-benzodiazepin törəməsi, 9 halda barbitur turşusu törəməsi, 3 halda pirazalon törəməsi olmaqla ümumilikdə 574 halda narkotik vasitələr və psixotrop maddələr aşkarlanmışdır.

| | |
|---|---|
| Tiryək alkaloidləri | 162 halda |
| Heroin | 79 halda |
| Morfin | 13 halda |
| Kodein | 6 halda |
| Kannaboidlər | 80 halda |
| Amfetamin | 61 halda |
| Metamfetamin | 94 halda |
| Metadon | 24 halda |
| Tramadol | 14 halda |
| Preqabalin | 5 halda |
| 1,4-benzodiazepin törəməsi | 24 halda |
| Barbitur turşusu törəməsi | 9 halda |
| Pirazalon törəməsi | 3 halda |
| **Ümumilikdə aşkarlanmış narkotik vasitələr və psixotrop maddələr** | **574 halda** |

# NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ



# NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

2021-ci il ərzində penitensiar müəssisələrdə saxlanılan narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə məhkum olunmuş şəxslərin sayı 6149 nəfər, onlardan məhkəmələr tərəfindən narkomaniyadan məcburi müalicə təyin edilmiş məhkumların sayı isə 3791 nəfər təşkil etmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.9-cu yarımbəndinə müvafiq olaraq, cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər arasında antinarkotik təbliğat işinin gücləndirilməsi, penitensiar müəssisələrin əməkdaşları üçün təlimlərin keçirilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Dövlət Komissiyasının İşçi Qrupu ilə ayrı-ayrılıqda imzaladığı tədbirlər planlarına uyğun olaraq maarifləndirmə tədbirləri həyata keçirilmişdir.





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.2-ci yarımbəndinin icrası məqsədilə Səhiyyə Nazirliyinin təşəbbüsü ilə Azərbaycan Tibb Universitetinin yuxarı kurs tələbələri üçün "Sağlam həyat və reproduktiv sağlamlıq" mövzusunda interaktiv tədbirlər təşkil olunmuş, Azərbaycan Dövlət Həkimlərin Təkmilləşdirmə İnstitutu tərəfindən həkim-narkoloqların diplomdansonrakı təhsili, ixtisasartırma kurslarında iştirakı və mütəmadi olaraq sertifikasiyaya cəlb olunması təmin edilmişdir.

Bununla yanaşı "Penitensiar müəssisələrdə saxlanılan məhkumların psixi sağlamlığının qorunması" layihəsi çərçivəsində həkim-psixiatr-narkoloqlara və digər tibb işçilərinə beynəlxalq ekspertlərin iştirakı ilə təlim-seminarlar keçirilmiş, həmçinin Avropa Şurası və Avropa ittifaqının birgə layihəsi olan "Azərbaycanda penitensiar islahatlara dəstək-2" layihəsi çərçivəsində pilot müəssisələrin həkim-psixiatr-narkoloqları üçün beynəlxalq ekspertlərin iştirakı ilə 5 videokonfrans və vebinar təşkil edilmişdir.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.24-cü yarımbəndinin icrası ilə əlaqədar, Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə imzalanmış Tədbirlər Planına müvafiq olaraq 2021-ci il ərzində 324 ümumtəhsil işçisindən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin psixoloq ixtisaslı zabitlərindən, 3 saylı Bakı "ASAN xidmət" mərkəzinin könüllülərindən, "Suraxanı Gənclər Evi" sosial xidmət müəssisəsinin əməkdaşlarından və fəallarından, Gənclərin İnkişafı və Karyera Mərkəzinin Qobustan, Siyəzən, İsmayıllı, Bərdə, Qax və Qazax nümayəndəliklərinin əməkdaşlarından narkomanlıqla mübarizə sahəsində maarifləndirmə tədbirlərinin aparılması məqsədi ilə təlimçilər hazırlanmışdır.









Hesabat dövründə Azəraycan Respublikasının Baş Prokurorluğu tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması, 2019-2020-2021-ci illərdə qanunsuz dövriyyədə olan narkotik vasitələrin növünün, əldə olunma mənbəyi, ölkə ərazisinə gətirilmə və tranzit üsullarının, istifadəçi qruplarının öyrənilməklə qabaqlayıcı tədbirlərin görülməsi istiqamətində ətraflı təhlillərin aparılması, bu sahədə qanunvericiliyin tətbiqi vəziyyətinin və beynəlxalq təcrübənin öyrənilməklə müvafiq qanunvericilik aktlarına əlavə və dəyişikliklərə dair təkliflərin hazırlanmasının təmin olunması məqsədilə geniş tərkibdə İşçi qrup yaradılmış və qanunverici, praktiki və institusional təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

# NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən əhalinin maarifləndirilməsi üzrə ötən il ümumtəhsil, orta ixtisas və ali təhsil müəssisələrində 400-dən çox görüş keçirilmişdir. Antinarkotik təbliğatın müasir forma və metodlarından istifadə edilməklə 6 videoçarx və əməliyyat tədbirlərinə dair 451sujet hazırlanaraq, kütləvi informasiya vasitələrində, habelə sosial şəbəkələrdə geniş işıqlandırılması təmin edilmişdir.






Eyni zamanda müvafiq mövzuda blogerlər arasında "Ən yaxşı mahnı" və "Ən yaxşı qısametrajlı film" nominasiyaları üzrə müsabiqə elan edilmiş, qaliblərinin mükafatlandırılması tədbiri keçirilmişdir.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə ali, orta ixtisas, ilk peşə ixtisas, ümumtəhsil müəssisələrində, məktəbdənkənar təhsil müəssisələrində müxtəlif aidiyyəti mövzularda dəyirmi masalar, vebinarlar, seminar və konfranslar təşkil edilmişdir.

Eyni zamanda, təhsilalanlarda yaradıcı təfəkkürün inkişaf etdirilməsi, bilik və məlumatlılıq səviyyələrinin artırılması, istedadlarının üzə çıxarılması məqsədilə ölkədaxili və beynəlxalq səviyyəli idman yarışları, intellektual müsabiqələr, sərgilər və digər tədbirlər təşkil olunmuşdur.





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.7-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsil İnstitutu tərəfindən "Təhsilalanların narkotik vasitələrdən və psixotrop maddələrdən qorunmasının tibbi-pedaqoji profilaktikası" adlı tədris-metodik vəsait hazırlanmışdır.

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən profilaktika və maarifləndirmə tədbirləri çərçivəsində "Covid-19 pandemiyası dövründə gənclər arasında narkomanlığa qarşı mübarizənin gücləndirilməsi" mövzusunda 60-dan çox şəhər və rayonu əhatə edən onlayn zona seminar-müşavirələr, "Narkomaniya uşaqların gözü ilə" adlı sərgi, nazirliyin tabeliyində olan Gənclər Evlərinin təşkilatçılığı ilə "Sağlam, narkotiksiz həyatı seç", "Gəncliyimizi narkomaniyadan qoruyaq", "Xoşbəxtlik sağlam həyatdadır", "Narkomanlıqla mübarizə hər birimizin vətəndaşlıq borcudur" və digər mövzularda təlimlər, konfranslar və görüşlər təşkil edilmişdir. Həmçinin, gənclər evlərinin təşəbbüsü ilə "Son kadrlar", "Narkomaniyasız sağlam həyat", "Narkomaniyanın törətdiyi fəsadlar" adlı sosial xarakterli videoçarxlar hazırlanmışdır.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ





Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin regional ekologiya və təbii sərvətlər idarələri yerli polis şöbələri ilə birlikdə narkotik xassəli bitkilərin yabanı halda bitmiş sahələrinin aşkar olunması üzrə müvafiq işlər həyata keçirmişdir. Belə ki, Qazax rayonunda 2448 ədəd, Ağstafa rayonunda 12400 ədəd,









Qubadlı rayonunun Davudlu kəndi ərazisində 3031 ədəd, Xaçmaz rayonunda 190 ədəd, Beyləqan rayonunda 743 ədəd yabanı halda bitmiş narkotik tərkibli çətənə kolu aşkar edilərək, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə məhv edilmişdir.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aidiyyəti mütəxəssislərinin iştirakı ilə İsmayıllı rayonunda 63 ədəd, Qax rayonunda 15731 ədəd, Bərdə rayonunda 25000 ədəd yabanı halda bitmiş narkotik tərkibli çətənə kolu aşkar edilərək, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə məhv edilmişdir.









Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeliyindəki birlik, birləşmə, müəssisə və təşkilatlarda hərbi qulluqçular üçün narkotik vasitələrin və psixotrop maddələrin insan orqanizminə vurduğu zərər, onların cəmiyyətdə törətdiyi fəsadlar haqqında "Narkomaniya ağ ölüm deməkdir", "Narkomaniya insan həyatını qısaldır", "Ordu gəncləri narkomaniyaya yox deyir", "Sağlam həyat tərzi, ailə xoşbəxtliyini təmin edən amildir" və digər mövzularda mühazirələr oxunmuşdur. Hərbi qulluqçuların peşəkarlığının artırılması məqsədilə komandir (rəis) heyəti, şəxsi heyətlə iş üzrə zabitlər və psixoloqlar üçün seminarlar, lazımi xəbərdaredici və izahedici profilaktik tədbirlər keçirilib, işğaldan azad olmuş ərazilərdə yayılan narkotik tərkibli yabanı bitki növlərinin zərərli xassələrinin hərbi qulluqçular arasında təbliği təşkil edilmişdir.





# NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.33-cü yarımbəndinə əsasən Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış





üzrə Dövlət Xidməti tərəfindən həqiqi hərbi xidmət keçənlər və hərbi çağırışçılar arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə təbliğat və maarifləndirmə işləri gücləndirilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan incəsənət məktəblərində “Narkotiklər ölümə aparır”, “Narkomaniyaya yox deyək” adlı rəsm sərgiləri, rəsm qalereyalarında “Pis vərdişlərdən yaxşı vərdişlərlə qurtulaq”, “Narkomaniya əsrin bəlasıdır” mövzularında sərgi, “Narkomaniya əsrin bəlası” adlı fotosərgi, gənclər kitabxanasında “Narkomaniyaya qarşı mübarizə” mövzusunda kartoteka, “Məhvə aparan





narkomaniya” başlığı altında ənənəvi kitab sərgiləri təşkil edilmiş, “Narkotik həyatı məhv edir”, “Ağ ölümə yox deyirik” adlı intelektual müsabiqələr keçirilmişdir. Həmçinin narkotik vasitələrin fəsadlarına dair “Xaş-xaşın göz yaşı”, “Bataqlığa düşən çiçək” və “Sonrakı peşimançılıq” adlı teatr tamaşaları hazırlanaraq nümayiş olunmuşdur.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən yetkinlik yaşına çatmayanlar arasında narkotik və psixotrop maddələrdən istifadə dərəcəsinin qiymətləndirilməsinin aparılması və təhlili üzrə analitik hesabat hazırlanmışdır. "Narkotik ya Həyat, seçim öz əlindədir" adlı baner hazırlanaraq "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti ilə əməkdaşlıq çərçivəsində metro stansiyalarında olan elektron tablolarında nümayiş olunmuşdur. "Narkotiklər yoxsa həyat" mövzusunda elektron posterlər Bakı Nəqliyyat Agentliyinə məxsus ictimai nəqliyyatda fəaliyyət göstərən avtobusların monitorlarında yayımlanmışdır. "Ziyanlı vərdişlərin qurbanı olma! Sağlamlığını qoru!" adlı videoçarx hazırlanaraq Komitənin rəsmi internet və sosial şəbəkələrdə olan səhifələrində yayımlanmışdır.





Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən respublikanın bir çox şəhər və rayonlarında "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları", "Narkomanlığa qarşı mübarizədə dini və milli-mənəvi dəyərlərin rolu", "Gələcəyə sağlam gənclərlə" və digər mövzularda maarifləndirmə tədbirləri keçirilmişdir.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurası Dövlət Komissiyasının müvafiq iclaslarında qəbul edilmiş qərarlara əsasən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə mövzusunun ümumölkə televiziya kanallarında işıqlandırılmasının monitorinqini həyata keçirmiş, aidiyyəti dövlət qurumları tərəfindən təqdim olunan sosial çarxların televiziya kanalları vasitəsilə geniş yayımlanması, televiziya kanallarında ekspertlərin iştirakı ilə xüsusi verilişlərin təşkil edilməsi, narkomanlığın zərəri ilə bağlı müəllif yazılarının hazırlanması təmin edilmişdir.




Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən ötən il ərzində narkomanlığın zərəri barədə materialların hazırlanması üçün tədqiqat işlərinin aparılması davam etdirilmiş, elmi-tədqiqat planlarında və layihə işlərində narkotik asılılığın öyrənilməsi mövzusu önəmli yer tutmuşdur. Eyni zamanda keçirilmiş ekspedisiyalar zamanı respublikanın ayrı-ayrı bölgələrində yabanı halda olan narkotik tərkibli bitki növlərinin müəyyənləşdirilməsi üçün mövsümə uyğun olaraq monitorinqlər aparılmışdır. Ölkə ərazisində yayılma yerlərinə uyğun olaraq daha çox şərqlaləsi, ziyilotu və dəlibəng bitki növlərinə rast gəlinmişdir.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən 2021-ci il 3 dekabr tarixində kiçik qrant müsabiqəsi elan edilmiş və müsabiqə çərçivəsində qalib elan edilən layihələrin icrasına 2022-ci il fevral ayından başlanılması nəzərdə tutulmuşdur.

Azərbaycan Milli Antidopinq Agentliyi Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.23-1-ci yarımbəndinə uyğun olaraq, görüləcək işlərin effektivliyini artırmaq və təcrübə mübadiləsini intensivləşdirmək üçün Dövlət Komissiyasının İşçi Qrupu ilə birgə 2021-ci ilə dair Tədbirlər Planı imzalamış və narkotik vasitələrin, psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqqında idmançıları maarifləndirmək məqsədilə müasir metodiki vasitələrdən istifadə etməklə ümumilikdə 9 vebinar, 25 seminar keçirmiş, 8 beynəlxalq və yerli yarışda antinarkotik təbliğatı aparmışdır.






2021-ci ildə şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyalar tərəfindən koordinasiya işinin gücləndirilməsi, narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

maarifləndirmə işinin əhatəsinin daha da genişləndirilməsi, yeniyetmə və gənclər arasında aparılan antinarkotik təbliğatı işlərinin davamlılığının təmin edilməsi, yetkinlik yaşına çatmayanların təlim-tərbiyəsinə, asudə vaxtlarının səmərəli təşkilinə diqqətin artırılması istiqamətində mövcud şəraitə uyğun olaraq bir sıra işlər görülmüşdür.





Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən Dövlət Proqramına uyğun olaraq, müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilməklə, narkomanlığa qarşı mübarizədə əlaqələndirmə işi gücləndirilmiş, yerli komissiyaların fəaliyyətinin səmərəliliyi artırılmış, narkomanlığın qarşısının alınması ilə bağlı təbliğat və maarifləndirmə işləri daha da gücləndirilmiş və davamlılığı təmin edilmiş, antinarkotik dünyagörüşünün formalaşdırılması məqsədilə təhsil müəssisələrində müvafiq zəruri işlər aparılmış, həyata keçirilən tədbirlərin rüblük nəticələri təhlil edilərək qiymətləndirilmiş, təbliğat işlərinin təsirliyinin artırılması istiqamətində vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı birgə fəaliyyət təmin edilmiş, ictimai və sosial maarifləndirmə işlərinin əhatəsi daha da genişləndirilmişdir.





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.4-cü yarımbəndinə müvafiq olaraq, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən “Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün metodik tövsiyələr” adlı kitabça, yeni forma və

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

məzmunda "Narkotiklər haqqında həqiqəti bilin", "Marixuana haqqında həqiqət","Psixotrop maddələr" adlı əyani vəsaitlər hazırlanmış, çap olunmuş və təşkil edilən təlimlərdə, maarifləndirmə tədbirlərində paylanılmış, eyni zamanda onlardan istifadənin təşviqi üçün internet resurslarında yerləşdirilməsi təmin edilmişdir.







Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.18 və 4.4.26-cı yarımbəndlərinin icrası məqsədilə , Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən ötən ilin oktyabr-noyabr ayları ərzində respublikanın 42 şəhər və rayonunda ümumtəhsil məktəblərinin





təlim-tərbiyə işləri üzrə direktor müavinləri, sinif rəhbərləri və məktəb psixoloqları üçün "Narkotik asılılıq, onun psixoloji səbəbləri və məktəbdə görülməli işlər" mövzusunda treninqlər təşkil edilmiş və ümumilikdə treninqlərə 1098 nəfər cəlb edilmişdir.





# NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Hesabat dövründə 42 şəhər və rayon üzrə yerli komissiyaların üzvləri ilə, din xadimləri və yerli qeyri-hökumət təşkilatları cəlb edilməklə görüşlər keçirilmiş, müvafiq müzakirələr aparılmış, metodiki kömək göstərilərək zəruri təbliğat materialları (elektron daşıyıcılarda) təqdim olunmuşdur.





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.17-ci yarımbəndinə uyğun olaraq, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən Azərbaycan Dövlət Pedaqoji Universitetində, Bakı Avrasiya Universitetində, Azərbaycan Texniki Universitetində, ADPU-nin Quba Filialında, Quba Tibb Kollecində, Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollecində, Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində, Şamaxı Dövlət Regional Kollecində narkomanlıq probleminə dair tələbələr üçün ictimai mühazirə və seminarlar keçirilmişdir.





Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində fəaliyyət göstərən 12 qeyri-hökumət təşkilatının təmsil olunduğu QHT Koalisiyası ilə imzalanmış Anlaşma Memorandumuna müvafiq olaraq, ötən ilin 17 sentyabr tarixində

# NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

"Narkomaniyaya qarşı mübarizə və vətəndaş cəmiyyəti" mövzusunda aidiyyəti dövlət qurumlarının nümayəndələri ilə videokonfrans formatında müzakirələr aparılmış, eyni zamanda hesabat dövründə təşkil edilən profilaktik tədbirlərə qeyri-hökumət təşkilatlarının, o cümlədən digər vətəndaş cəmiyyəti institutlarının cəlb olunması təmin edilmişdir.





Narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyanı, bu sahədə həyata keçirilən tədbirlər və onların nəticələri barədə məlumatlılığın artırılması məqsədilə müvafiq razılaşmaya əsasən "İki Sahil" qəzetində rubrika açılmış və qrafikə uyğun olaraq aidiyyəti qurumlar tərəfindən təqdim olunan məqalələr hər həftənin şənbə günləri dərc edilmişdir.


Biz beynəlxalq arenada öz mövqelərimizi möhkəmləndiririk
ANAMA ƏDV-dən azad edilib
Milli Məclisin yaz sessiyası ilk komitə iclasının vaxtı açıqlanıb
iki sahil
www.ikisahil.az / www.ikisahil.tv
Gündəlik ictimai-siyasi qəzet / № 06 (7982) / Çərşənbə, 12 yanvar 2022-ci il
AZƏRBAYCAN NEFTİNİN BİR BARELİ 84,67 DOLLARA SATILIR
Türk Dövlətləri Təşkilatı Qazaxıstana güclü dəstəyini və həmrəyliyini bir daha təsdiqləyib
BƏYANAT
PREZİDENT İLHAM ƏLİYEV:
Bu Zəfər bizim tariximizdə əbədi qalacaq
QAZAXISTANIN YENİ BAŞ NAZİRİ SEÇİLİB
ŞUŞA - Mənəvi varlığımızın ayrılmaz parçası
Niyə qurunun oduna yaş da yanmalıdır?
Narkomanlığa qarşı mübarizədə atılan addımlar qətiyyətlidir
İnsana ilk dəfə olaraq donuz ürəyi köçürülüb


6
Sosial
iki sahil
Narkomanlığa qarşı mübarizədə atılan addımlar qətiyyətlidir

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Hesabat dövründə “26 iyun-Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü” ilə əlaqədar Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən:

- 24-29 iyun tarixlərində Bakı Nəqliyyat Agentliyi vasitəsilə elektron məlumat tablolarında “Narkomanlığa birlikdə yox deyək” şüarının nümayişi;





- maarifləndirici videoçarxların Bakı şəhərinin bir sıra küçə və prospektlərində mövcud olan elektron reklam lövhələrində və “BakuBus” Məhdud Məsuliyyətli Cəmiyyətinin avtobuslarında olan monitorlarda nümayişi;





- Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə sms maarifləndirmə layihəsi çərçivəsində 2021-ci ilin 25 iyun tarixindən başlayaraq sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı “Azərfon”, “Bakcell” MMC və “Azercell Telekom” MMC vasitəsilə ümumilikdə 7,7 milyon aktiv abunəçiyə sms bildirişinin göndərilməsi;






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

- Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Qərbi Kaspi Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci ilə birgə vebinarların eyni zamanda Təhsil Nazirliyinin müvafiq göstərişinə əsasən digər ali və orta ixtisas təhsili müəssisələrində "Narkotiklər haqqında həqiqəti öyrənək" mövzusunda videokonfrans şəklində tədbirlərin keçirilməsi;





- şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyalar ilə videokonfrans şəklində maarifləndirici silsilə tədbirlərin təşkili təmin edilmişdir.





Eyni zamanda, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti vasitəsilə metropolitenin stansiyalarının platforma, keçid, vestibüllərində, həmçinin sərnişin






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

axınını tənzimləyən eskalatorlara yaxın sahələrdə sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı müasir dizayn ilə tərtib edilmiş 21 ədəd sosial lövhə yerləşdirilmişdir. Həmçinin stansiyalarda yerləşən monitorlarda narkotik vasitələrin və psixotrop maddələrin zərərli təsirlərini əks etdirən sosial təyinatlı videoçarxlar yayımlanmışdır.





Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən hazırlanmış üzərində narkotik vasitələrin fəsadları barədə xəbərdaredici və zəruri əlaqə vasitələrinə dair məlumatlar əks olunan sosial lövhələrin Bakı şəhəri üzrə ümumtəhsil məktəblərində, Penitensiar Xidmətin cəza-çəkmə müəssisələrində quraşdırılması təmin edilmişdir.









## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmış narkomanlığın zərəri barədə "Narkotik sərhədsiz fəlakətdir" və animasiya formatında olan "İçindəki günəşi qoru, narkotikə yox de", "Çalış ki, narkotikə hədəf olmayasan" adlı sosial roliklər 2021-ci il ərzində mütəmadi olaraq bütün televiziya kanallarında yayımlanmışdır.






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Görülən işlərlə yanaşı ötən ilin dekabr ayında Bakı şəhəri üzrə təhsil müəssisələrində anti-narkotik təbliğat işinin gücləndirilməsi məqsədi ilə Təhsil Nazirliyinin Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu arasında birgə Tədbirlər Planı imzalanıb.

Tədbirlər Planına əsasən 2022-ci il ərzində narkotik və psixotrop maddələrin fəsadları haqqında məlumatlılığın artırılması məqsədilə ümumitəhsil məktəblərində seminar-məşğələlər, şagirdlər arasında narkomanlığa qarşı intellektual və rəsm müsabiqələri, məktəb psixoloqları üçün narkomanlıq probleminə dair təlimlər, məktəblərinin uşaq birliyi rəhbərləri, valideyn komitəsi sədrləri, məktəb-valideyn icmasının üzvləri üçün treninqlər və eləcə də müvafiq videofilmlərin nümayişi və zəruri təbliğat materiallarının paylanılması ilə əlaqədar bir sıra tədbirlər keçiriləcəkdir.

Eyni zamanda gənclər arasında maarifləndirmə işinin sistemli şəkildə həyata keçirilməsi məqsədi ilə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun təşəbbüsü ilə Azərbaycan Respublikası Gənclər Fondu ilə 2022-ci ilə dair birgə Tədbirlər Planı imzalanmışdır.

Tədbirlər Planı çərçivəsində Gənclərin İnkişaf və Karyera Mərkəzinin 55 şəhər və rayonda fəaliyyət göstərən nümayəndəliklərinin mütəxəssis, əməkdaş və könüllülərinin narkotik asılılıq probleminə dair biliklərinin və peşakarlıq səviyyəsinin artırılması ilə bağlı interaktiv formada təlim keçirilməsi, müasir vasitələrdən istifadə etməklə antinarkotik təbliğat işinin təşkili, narkomanlıqla mübarizə sahəsində maarifləndirmə tədbirlərinin aparılması məqsədilə təlimçilərin hazırlanması, habelə maarifləndirmə funksiyasını yerinə yetirən Bakı Uşaq və Gənclər Teatrının səhnələşdirdiyi "Həyatla oyun" tamaşasının canlı ifada Gənclərin İnkişaf və Karyera Mərkəzinin şəhər və rayonda fəaliyyət göstərən nümayəndəliklərində nümayişi planlaşdırılır.

Bundan əlavə cəzaçəkmə müəssisələrində anti-narkotik təbliğat işinin daha da gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyi Penitensiar Xidməti ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu arasında 2022-ci il üçün birgə Tədbirlər Planı imzalanıb.

2022-ci il ərzində Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Mühafizə alayında və müəssisələrində əməkdaşlar üçün təlimlər, cəzaçəkən məhkumlar arasında narkotiklərin insan orqanizminə məhvedici təsiri, cəmiyyətə və insanların sağlamlığına ziyanı, QİÇS və digər viruslara yoluxma barədə tibbi-gigiyena, məhkumların reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üçün onlara izahların verilməsi mövzusunda, eləcə də müvafiq videofilmlərin nümayişi və zəruri təbliğat materiallarının paylanılması ilə əlaqədar bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur.

# QEYD

# İLLİK HESABAT
# 2021

